# "Komanda işi, liderlik bacarıqlarımızı daha da inkişaf etdirmişik"

**Noyabrın 11-22-də Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) işinə Azərbaycanın gənc könüllüləri də töhfə veriblər.**

**"Azərbaycan müəllimi" COP29 könüllülərinin bir neçəsi ilə görüşərək onların tədbirlə bağlı təəssüratlarını öyrənib.**

## COP29 könüllülərinin təəssüratları









### "Fərqli mədəniyyətlərdən olan insanlarla tanışlıq dünyagörüşümü genişləndirdi"

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Beynəlxalq münasibətlər" ixtisası üzrə təhsil alan 3-cü kurs tələbəsi Müşərrəf Kərimli tədbir zamanı könüllü kimi COP29-un Təşkilat Komitəsinin Akkreditasiya və viza departamentində fəaliyyət göstərib. O bildirib ki, tədbirdə əsas vəzifəsi iştirakçıların qeydiyyatını aparmaq, akkreditasiya kartlarını hazırlayıb onlara təhvil vermək və qonaqları düzgün şəkildə yönləndirmək idi: "Akkreditasiya hər bir tədbirin əsas hissəsidir. COP29 kimi genişmiqyaslı beynəlxalq tədbirdə heç bir iştirakçı akkreditasiya olmadan iştirak edə bilməz. Bu, həm Yaşıl Zona, həm də Mavi Zona üçün eyni dərəcədə vacib idi. Belə məsuliyyətli vəzifədə çalışmaq mənim üçün böyük bir şərəf idi".

Könüllülük fəaliyyəti zamanı bir çox yeni bacarıqlar əldə etdiyini və mövcud qabiliyyətlərini inkişaf etdirdiyini dilə gətirən M.Kərimli xüsusilə komanda işi, liderlik və məsuliyyətli qərar qəbuletmə üzrə bacarıqlarını artırıb. Hər bir situasiyada sürətli və effektiv həll yolları tapmaq bacarığının inkişafı üçün özünü daha da təkmilləşdirib.

Tədbir zamanı dünyanın müxtəlif ölkələrindən gəlmiş insanlarla birbaşa ünsiyyətdə olmaq Müşərrəf üçün xüsusi bir təcrübə olub. O qeyd edib ki, fərqli mədəniyyətlərdən olan insanlarla tanış olmaq dünyagörüşünü genişləndirib. Bu ünsiyyət həm də dil bacarıqlarının praktiki şəkildə tətbiqinə imkan yaradıb.

Könüllük fəaliyyəti zamanı, həmçinin ekoloji təşəbbüslərdə - ağacəkmə və abadlaşdırma aksiyalarında iştirak edib. Bu fəaliyyətlər ona ətraf mühitin qorunmasına daha dərindən yanaşmağa kömək edib.

COP29-da iştirakını özü üçün çox dəyərli bir təcrübə sayan Müşərrəfin əsas məqsədlərindən biri gələcəkdə daha çox beynəlxalq tədbirdə iştirak etmək və təcrübəsini daha da zənginləşdirməkdir.

### "COP29-da könüllü olmaq gələcək və peşəkar həyata uğurlu addımdır"

Elşən Soltanzadə Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin 4-cü kurs tələbəsidir. "Çoxsaylı qonaqları olan COP29-da könüllü olmaq, təbii ki, böyük fəxrdir. Bir könüllü kimi belə tədbirlərdə iştirak insana çox yaxşı təcrübə qazandırır. Ünsiyyətin yalnız ingilis dilində olması dil baryerini aradan qaldırmağa kömək edir. Burada digər könüllülərlə sosiallaşmağın da önəmi çox böyükdür. Bu tip tədbirlərdə iştirak edən könüllülərin xüsusi özəlliyi olur. Onlarla ünsiyyətə girmək, həmsöhbət olmaq, müxtəlif bilik və bacarıqlar haqqında danışmaq çox yaxşıdır".

### "COP29-dakı könüllülük fəaliyyətim mənə unudulmaz xatirələr qazandırdı"

Azərbaycan-Fransız Universitetində "Kompüter elmləri" ixtisası üzrə təhsil alan Fəridə Şəkixanlı deyir ki, COP29-da könüllü olmağını gəncliyinin ən maraqlı və yaddaqalan təcrübəsi kimi xatırlayacaq: "Düşünürəm ki, bu qədər seçim mərhələsindən uğurla keçmək və öz sevdiyim sahə üzrə təcrübə yaşamaq, dünyanın müxtəlif mədəniyyətləri ilə tanış olmaq çox qürurvericidir. Bizim informasiya kommunikasiya texnologiyaları komandası kompüter mərkəzində və müxtəlif iclas otaqlarında texniki dəstəyin göstərilməsinə yardım edirdi. COP29 tədbiri ərəfəsi və onun keçirildiyi gün də daxil olmaqla, ümumilikdə 17 gün könüllü kimi fəaliyyət göstərdim. Burada texniki dəstək göstərməklə yanaşı, yeni dostlar qazandım və çevrəmi genişləndirdim. Əminəm ki, tədbirdə iştirak həm karyerama, həm də şəxsi həyatıma çox müsbət təsir göstərəcək. COP29-dakı könüllülük fəaliyyətim mənə unudulmaz xatirələr qazandırdı".

### "Minlərlə insanın bir araya gəldiyi mötəbər konfransın bir parçası olmaq qürurverici idi"

COP29 könüllülərindən biri də Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin 3-cü kurs tələbəsi Günel Məmmədovadır. COP29 onun könüllü kimi iştirak etdiyi 4-cü beynəlxalq tədbirdir. Bundan əvvəl o, media könüllüsü kimi Şuşa Qlobal Media Forumlarında, 6-cı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak edib. Hər tədbirin özəl xatirələr və təcrübələrlə yadda qaldığını söyləyən Günel deyir: "Dünya liderləri daxil olmaqla minlərlə insanın yaşıl dünya naminə bir araya gəldiyi COP29 kimi mötəbər konfransın bir parçası olmaq qürurverici idi. COP29-da könüllü olmaq dünya, ekologiya və ətraf mühitlə bağlı məlumatlılığımı artırdı, yerli və xarici itirak şəxsiyyətlər və mütəxəssislərlə bir arada olmağımız üçün platforma rolunu oynadı. Ən əsası, COP29-da könüllü olarkən bir çox yeni dostlar qazandım. Mənim üçün ən özəl və qürurverici hadisələrdən biri beynəlxalq tədbirlərdə tanış olduğum xarici mütəxəssislərlə orada yenidən rastlaşmaq, söhbət etmək idi. Mən onları tanıyıb xatırladığım kimi onlar da məni tanıyıb xatırlayır, fəaliyyətim, təhsil həyatım barədə məlumatlar alırdılar. Bu, mənə xoş anlar yaşatdı. Bu konfransda fəaliyyət göstərmək dünyagörüşümü artırdı, böyük və əvəzolunmaz təcrübələr qazandırdı. İş görərək həm öyrəndik, həm də əyləndik".

O, COP29 təcrübəsinin gələcəkdə könüllülərin həm karyerasında, həm də şəxsi inkişafında mühüm rol oynayacağını ifadə edib. Günel, eyni zamanda könüllüləri seçən, onlara xüsusi diqqət və qayğı ilə yanaşan, zəhmətlərini dəyərləndirən COP29-un işçi heyətinə xüsusi minnətdarlığını bildirib.

**Tünzalə QULİYEVA**